Telman ORUCOV

# ÜMUMDÜNYA TARİXİ

(III kitab)

## YENİ TARİX

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"ADİLOGLU"
Bakı - 2011

Telman ORUCOV, "ÜMUMDÜNYA TARİXİ" III kitab
Bakı, «Adiloğlu» nəşriyyatı, 2011, 688 səh

Redaktor: Aynur CƏFƏROVA

4722110018 / 121 - 2011 qrifli nəşr

© "ADİLOĞLU", 2011



# YENİ TARİX

## Müqəddimə

Tarixçilər orta əsrlərin təqribən 1500-cü illər ətrafında başa çatması barədə razılaşmağa meyl edirlər. Bundan sonra Avropa tarixinin "erkən yeni" dövrü gəlir və bu dövr fransız inqilabının və sənaye inqilabının başlanmasına qədər davam edir. Beləliklə, "erkən yeni" dövr 18-ci əsrin sonunda başa çatır. Xeyli əvvəl, 1350-ci illər ərəfəsində İtaliyadakı yeni mədəni hərəkatın təmsilçiləri, bu hərəkat adətən Renessans adlanır, orta əsrlərin təməl qaydalarına meydan oxumağa başladılar və orta əsrlərin ədəbiyyat və incəsənət ifadəsi formalarına öz alternativlərini təklif etdilər. 1500-cü illərə yaxın Renessans idealları təkcə bütünlüklə İtaliyada zəfər çalmamışdı, həmçinin Şimali Avropada yayılmaqla yanaşı xristian humanizminin yüksək dərəcədə nüfuzlu hərəkatını yaratmaq barədə də düşünürdü. Elə həmin vaxt, 16-cı əsrin əvvəllərindən Qərbi Avropa genişlənmə və bölünmə hesabına orta əsrlərdə meydana çıxmış nə varsa onların çoxunu itirməli oldu. Qorxmaz dənizçilər və konkistadorlar Avropanın Atlantik və Hind okeanlarındakı macəralarla dolu olan kəşflər minilliyini yekunlaşdırdılar, onlar Avropa bayrağını bütün dünya üzərində ucaltdılar. Lakin Avropanın protestant reformatsiyası nəticəsində öz dini birliyini itirməsi də bu hadisə ilə üst-üstə düşdü. Qitə iki bir-birinə düşmən olan dini cəbhələrə bölündü. Bundan sonra 1560-cı ildən 1660-cı ilə qədər olan dövrdə Qərbi Avropa ciddi iqtisadi, siyasi və mənəvi böhran keçirməli oldu, həm də bu sınaqdan keçməklə öz enerjisini və inamını da bərpa etdi. Kommersiya inqilabı okeanın o tayındakı koloniyaların və ticarətin inkişafını canlandırdı və bu, kənd təsərrüfatı və sənaye ekspansiyasına şərait yaratdı. Monarxların öz səltənətləri daxilindəki müxtəlif malikanələrdən olan etirazlarla qarşılaşmasının davam etməsinə baxmayaraq, onlar hakimiyyəti mütləq hökmdarlar kimi öz üzərlərinə götürürdülər, bürokratiyanın genişləndirilməsi hesabına daxili narazılıqları yatırdırdılar.

Xarici siyasətdə müharibə başlıca alət olaraq qalırdı. Bu dövrün sonundan həm də dövlətlər arasında tarazlığın dəstəklənməsi bu siyasətin məqsədi kimi qarşılıqlı olaraq daha çox tanınmağa başlandı. Nəticədə, 17-ci əsrin sonunda baş verən ilkin təşəbbüs - Kopernik tərəfindən edilən elmi inqilab İsaak Nyuton tərəfindən başa çatdırıldı və 18-ci əsrdə "maarifçilər" tərəfindən bu iş davam etdirilməklə, öz səyləri ilə insanın təbiətə və daha yaxşı qaydada özünə hakim olmaq bacarığı barədə yeni dünyəvi inam meydana gəldi.

# FƏSİL 1. RENESSANS SİVİLİZASİYASI

## Qərbi Avropada Renessans dövrünün başlanması

"Renessans dövrü" Qərbi Avropada orta əsrlərdən sonra meydana çıxmaqla, ilk dəfə 1350-ci və 1550-ci illər arasındakı iki əsr ərzində yaşamış bir sıra italyan yazıçılarının əsərlərində ifadə olunmuşdu. Bu qəbul olunmuş qaydaya uyğun olaraq əvvəlki min il qaranlıq dövr olmaqla, Roman erası ilə onların öz zamanları arasındakı bir müddəti təmsil edirdi. Bu "qaranlıq era" ərzində incəsənət və ədəbiyyat muzaları barbarlığın və cəhalətin hücumu qarşısında qaçıb yoxa çıxmağa məcbur olmuşdu. Ancaq demək olar ki, 14-cü əsrdə möcüzəli şəkildə qəflətən həmin muzalar geri döndülər və italyanlar xoşbəxt qaydada bunu "incəsənətlərin Renessansı" kimi şərəfləndirdilər. "Renessans" fikirdə, ədəbiyyatda və incəsənətdə bir sıra vəcdə gələn meyllərin təsviri kimi qiymətləndirilir. Bu İtaliyada yarandıqdan sonra 16-cı əsrin birinci yarısında Şimali Avropaya yayılmağa başladı. 1350-ci il ətrafında bir sıra italyan ziyalıları yunan və roman mədəni nailiyyətlərini yenidən dərk etməyə başladı, bununla da uzun müddətli "ölüm" dövründən sonra klassik mədəniyyətin yenidən doğulması baş verdi. Ancaq yüksək orta əsrlər sübut edir ki, əslində heç də klassik biliyin "ölməsi" baş verməmişdi. Misal üçün, Müqəddəs Toma Akvinas Aristoteli "filosof" hesab edirdi, Dante isə Vergiliyə böyük ehtiram bəsləyirdi. Orta əsr alimləri Tsitseron, Vergili və Ovidi kimi roman müəlliflərinin çoxunu tanıyırdılar, Renessans dövründə isə Tit Livi, Tatsit və Lukretsi kimi digər müəlliflərin əsərləri ilə tanışlıq başlandı. Bərabər qaydada bu da elə mühüm məsələ deyildi ki, Renessans klassik yunan ədəbiyyatını kəşf etdi. 12-ci və 13-cü əsrlərdə yunan alimlərinin və filosoflarının traktatları latın tərcüməsində qərblilərə məlum idi, lakin böyük yunan ədəbi inciləri və praktiki olaraq Platonun böyük əsərləri bu vaxt hələ məlum deyildi. Bir ovuc adamdan başqa orta əsr qərblilərindən heç kəs yunan dilində oxuya bilmirdi. Renessans dövründə isə böyük sayda Qərb alimləri yunan dilini öyrəndi və bu gün məlum olan bütün yunan ədəbi irsinə yiyələndi.

Digər tərəfdən, Renessans mütəfəkkirləri təkcə daha çox klassik mətnləri bilmirdilər, həm də onlardan yeni qaydada istifadə edirdilər. Üçüncü bir cəhət də ondan ibarət idi ki, bütün Renessans mədəniyyəti heç də bütpərəst deyildi, bu mədəniyyət orta əsrlərdəkinə nisbətən öz istiqamətində daha çox dünyəvi xarakter daşıyırdı. İtalyan şəhər-dövlətlərinin 14-cü və 15-ci əsrlərdəki təkamülü şəhər siyasi mühitini yaradırdı. Mahiyyət etibarilə belə dünyəvi ideallar artan dərəcədə kilsə ilə əlaqəsi olmayan mədəniyyətin yaranmasına kömək edirdi. Kilsə öz sərvətinin və təsirinin bir hissəsini qoruyub saxlasa da, özü də daha çox dünyəviyə çevrilməklə sekulyarizmin yayılmasına şərait yaradırdı.





Renessansın təsirli ideallarının təməlini və ümumi xarakterini hər şeydən əvvəl humanizm ifadə edirdi. Renessans mütəfəkkirlərinin bir çoxunun mədəni məqsədləri və idealları məhz bunda özünü nümayiş etdirirdi. Humanizm təhsil alma proqramı olmaqla orta əsr sxolastikasının yerini tutdu. Artıq dil, ədəbiyyat, tarix və etika da tədris edilirdi, sxolastika isə yalnız öz diqqətini məntiq və metafizikada cəmləşdirmişdi. Antik ədəbiyyata da üstünlük verilirdi, latın klassiklərinin öyrənilməsi tədris planının özəyini təşkil edirdi, tələbədən həmçinin yunan dilini bilmək tələb olunurdu. Humanizm barədə geniş düşüncə insanın "ləyaqət" hissinə əsaslanırdı, insan mələklərdən aşağı olmaqla Allahın bütün yaratdıqlarından yuxarıda dururdu. Renessans humanistləri istənilən qaydada bəşər irqinin nəcibliyinə və imkanlarına möhkəm inam bəsləyirdilər.

## İtalyan mühiti

İtaliyada Renessans bir neçə səbəbə görə meydana gəlmişdi. Ən başlıca səbəb ondan ibarət idi ki, İtaliyada sonrakı orta əsrlərdə şəhər cəmiyyəti bütün Avropada olduğundan çox irəli getmişdi. Alpdan şimalda olan kübarlardan fərqli olaraq italyan kübarları kənd qəsrlərinə nisbətən adətən şəhər mərkəzlərində yaşayırdılar və nəticədə bütünlüklə şəhər ictimai həyatına alışmışdılar. Həm də şimala nisbətən italyan aristokratları öz saraylarını şəhərlərdə tikməklə varlı tacir sinfindən daha az qaydada aralanmışdılar. Fransada və ya Almaniyada kübarlar torpaq mülkündən əldə etdikləri gəlirlər hesabına yaşayırdılar, şəhərin varlı sakinləri isə öz yaşayış vəsaitlərini ticarətdən əldə edirdilər. İtaliyada isə çox sayda şəhərdə yaşayan kübarlar bank və ya ticarət işi ilə məşğul olurdular, 14-cü və 15-ci əsrlərdəki varlı tacir ailələri aristokratların və yuxarı burjua sinfinin qaydalarını təqlid edirdilər və onların arasında faktiki olaraq elə bir fərq yox idi. Əvvəllərdə qeyd edilmiş florensiyalı Mediçi sülaləsi, misal üçün, həkimlər ailəsindən yaranmışdı, adları da bu mənanı bildirirdi, öz talelərini onlar bank işi ilə bağladılar və 15-ci əsrdə bu ailə gözə çarpmadan kübarlığa yüksəldi.

İtaliyada çox sayda dünyəvi maarif işçiləri vardı, onların çoxu təkcə tələbələrə dərs verməklə kifayətlənmirdilər, həm də öz təhsil övladlarını ictimai səhnədə iştirak etməyə həvəsləndirirdilər. Bu müəllimlərin məktəbləri beləliklə bütün Avropada ən yaxşı təhsil görmüş yuxarı sinif ictimaiyyəti yaratmışdı. Onlardan olan müəyyən sayda varlı himayəçilər yeni ideyaların həyata keçirilməsinə maliyyə yardımı etməyə hazır idilər. Məhz onların köməyi ilə ədəbiyyat və incəsənətdə ifadə tərzlərinin yeni formaları meydana gəldi.

Sonrakı orta əsr İtaliyasının intellektual və incəsənət Renessansının doğum yeri olmasının ikinci səbəbi isə ondan ibarət idi ki, bura Qərbi Avropanın digər ərazilərinə nisbətən klassik keçmişlə daha böyük əlaqəyə malik idi. Buradakı ən yaxşı müəllimlər qədim latın və yunan mətnlərində düşünülmüş qaydada bir ilham mənbəyi axtarırdılar, çünki siyasət və siyasi ritorika orta əsr sənəti olmaqdan daha çox klassik xarakter daşıyırdı. Qədim roman tarixi abidələrinə yarımadanın hər yerində rast gəlinirdi, qədim latın ədəbiyyatı da Renessans italyanlarının özününkü hesab etdiyi şəhərlərə və ərazilərə məxsus idi.

İtalyanlar sxolastitsizmə əksliyi ilə seçilən müstəqil mədəniyyət yaratmağa çalışırdılar. Çünki sxolastitsizm əslində daha çox Fransanı yada salırdı. Təkcə Papalığın 14-cü əsrdə Avinyona uzaqlaşdırılması, həmçinin 1375-ci ildən 1415-ci ilə qədər davam edən Böyük Sxizm və İtaliya ilə Fransa arasındakı yüksələn antoqonizm deyil, həm də belə bir fakt da vacib idi ki, 14-cü əsr ərzində İtaliyada bütün cəbhələrdə sxolastitsizmə qarşı intellektual münasibət mövcud idi. Buna görə də klassik ədəbi mənbələrin təklif etdiyi intellektual alternativlərə üstünlük vermək italyanlar üçün bir nov təbii hal idi. Bu da təbii idi ki, İtaliyada daim xoşa gələn məhz roman rəssamlığı və arxitekturası idi, çünki roman modelləri fransız qotikasına nisbətən daha möhtəşəm sənət əsərləri yaratmaqda italyanlara kömək edirdi. Beləliklə, roman biliyi fransız sxolastitsizminə qarşı intellektual alternativ təklif edirdi.

Nəticədə, italyan Renessansı əvvəlcədən mövcud italyan sərvətinin təsiri olmadan meydana gələ bilməzdi. Bunu da əlavə etmək kifayətdir ki, 14-cü və 15-ci əsrlərlə müqayisədə italyan iqtisadiyyatı 13-cü əsrdə bütünlükdə daha yaxşı inkişaf etmişdi. Həm də sonrakı orta əsr İtaliyası Avropanın digər hissələri ilə müqayisədə daha varlı idi, buna görə də italyan yazıçıları və rəssamları kənarda iş axtarmaqdansa vətəndə qalmağa üstünlük verirdilər. Şəhərin mədəniyyətə ictimai köməyi təqribən 1250-ci ildən başlayaraq 1450-ci ilə qədər davam etdi. İlk dövrlərdə varlı şəhərlər daha möhtəşəm ictimai abidələr tikməkdə və yazıçılara maddi köməklik göstərməkdə bir-biri ilə rəqabət aparırdılar. 14-cü əsrdən başlayaraq şəhər-dövlətləri hersoqluğa çevirib böyük hökmdarlar kimi idarə edən Milandakı Viskontilər və Sfortsalar, Florensiyadakı Mediçilər, Ferraradakı Estelər və Mantuyadakı Qonzaqalar özlərini şöhrətləndirmək üçün öz saraylarında incəsənətə və ədəbiyyata himayəçilik göstərirdilər. Bu vaxt kiçik aristokrat ailələri də bu hökmdarları təqlid edərək nisbətən kiçik ölçüdə məhz belə fəaliyyət göstərirdilər.

1450-ci və 1550-ci illər arasındakı dövrdəki Roma papaları İtaliyadakı böyük hökmdarlardan heç də ən kiçikləri hesab olunmurdular, onlar Papalıq dövlətlərində öz dünyəvi hakimiyyətlərini möhkəmləndirməyin qayğısına xüsusilə qalırdılar. Həmin vaxtlardakı Renessans Papaları olan VI Aleksandr (1492-





1503-cü illər), II Yuli (1503-1513-cü illər) və X Leo (1513-1520-ci illər), - axırıncı Florensiya hökmdarı Lorentso de Mediçinin oğlu idi, - öz dövrlərinin ən böyük rəssamlarının xidmətindən istifadə etməklə bir neçə on illik ərzində Romanı Qərb dünyasının rəqabətsiz incəsənət paytaxtına çevirmişdilər.

## İtaliyada fikir və ədəbiyyat Renessansı

İtalyan Renessansı alimlərinin və yazıçılarının ən böyük nailiyyəti Frantsisk Petrarkanın (1304-1374-cü illər) əsərlərindən başlayır. Petrarka bu termin nöqteyi-nəzərindən ən erkən humanist idi. Petrarka dərin inam bəsləyən xristian olmaqla yanaşı, düşünürdü ki, xristian yazıçısı hər şeydən əvvəl ədəbi natiqlik sənətini tərbiyə etməli idi ki, xalqı yaxşı işlər görməyə ruhlandırsın. Onun üçün nitq mədəniyyətinin ən yaxşı modeli qədim ədəbi klassikada tapılmalı idi. Beləliklə, Petrarka özünü kəşf edilməmiş qədim latın mətnlərinin axtarışına, tədqiqinə həsr etdi. O, həm də özünün mənəvi traktatlarını yazırdı, bunlarda klassik üslubu təqlid edir və klassik kəlmələrdən sitat gətirirdi. Həmin vaxtdan etibarən "humanist" təlimlərinin proqramını tərtib etdi və bu sənəd əsrlər boyu öz qiymətini itirmədi.

Petrarka həm də poeziyasına görə sırf ədəbiyyat tarixində də öz yerini tutdu. Latın poeziyasını tərifləməsinə baxmayaraq, o, italyan dilində də yazırdı. Sonralar Petrarka sonetləri adlanan italyan sonetlərini o, sevgilisi Lauraya, özü də trubadurların cəngavər üslubunda həsr etmişdi. Bu şeirlərin forması bütün Renessans dövründə geniş təqlid edildi.

Humanistlərin ən yaxşı əsərlərindən biri Albertinin "Ailə haqqında" (1443-cü il) əsəri idi, burada o, təlqin edirdi ki, özək ailə bəşəriyyətinin rifahı üçün təbiətin özü tərəfindən yaradılmışdır. Lakin o, bu çərçivə daxilində qadını təmiz ev işlərini görmək rolu ilə məhdudlaşdırırdı və güman edirdi ki, "kişi təbiətin özü tərəfindən daha güclü və fərasətli edilmişdir, qadın isə "nəsli artırmaq və davam etdirmək və artıq doğulmuş uşaqları bəsləmək və böyütmək üçün" yaradılmışdır.

Nüfuzlu Renessans mütəfəkkiri Lorentso Valla (1407-1457-ci illər) Romada doğulmuş, Neapol kralının xidmətində katib kimi fəaliyyət göstərmişdi. O, Florensiya mülki humanistlərinin etdiyi kimi respublika siyasi quruluşu ideyasını dəstəkləməyə heç cür meyl etmirdi. Bunun əvəzində o, öz bacarığını bir mütəxəssis kimi qrammatikaya, ritorikaya və yunan və latın mətnlərinin təhlil edilməsinə həsr edirdi. Özünün ən böyük qabiliyyətini "Konstantin hədiyyəsi" adlanan sənədin orta əsr saxtakarlığı olduğunu sübut etməklə nümayiş etdirmişdi. Papa təbliğatçıları hətta 13-cü əsrdən sübut etməyə çalışırdılar ki, papalıq Qərbi Avropada dünyəvi hakimiyyət hüququna malikdir və bu imperator Konstantin tərəfindən 4-cü əsrdə verilmiş xartiyaya əsaslanır. Valla müzakirədən kə-

narda sübut etdi ki, bu sənəd qeyri-klassik latından istifadə edilməklə yazılmışdır və anaxronik terminlərlə doludur. Belə nəticəyə gəldi ki, "Hədiyyə" orta əsrin saxta sənədidir, onu tərtib edənlərin "eybəcər həyasızlığı" özünü "onun dilinin səfehliyində" göstərir.

Onun digər əsəri olan "Yeni Vəsiyyət barədə qeydlər"də o, yunan dilini yaxşı bilməsini isə Müqəddəs Pavelin sözlərinin həqiqi mənasını izah etməkdə göstərir. Bu əsər italyan Renessansı alimləri ilə şimalın sonrakı xristian humanizmi arasındakı mühüm əlaqəni sübut etdi.

1450-ci ildən 1600-cü ilə qədər olan dövrdə dünyada ağalıq edən italyan fikri neoplatonistlər məktəbi tərəfindən mənimsənildi. Onların arasında ən görkəmliləri olan Marsilio Fitsino və Covanni Piko della Mirandola, Kozimo de Mediçi tərəfindən Florensiyada əsası qoyulan Platonik Akademiyanın üzvləri idi. Akademiya alimlərin sərbəst təşkil olunmuş cəmiyyəti idi, bu alimlər oxuduqlarını müzakirə etmək və mühazirələri dinləmək üçün görüşürdülər. Onların qəhrəmanı heç bir şübhəyə məruz qalmayan Platon idi. Bəzi vaxtlarda onlar Platonun anadan olması gününü bayram edirdilər, onun şərəfinə ziyafət təşkil edirdilər, bu ziyarətlərdən sonra hər kəs platonik dialoq şəklində olan qaydada çıxış edirdi. Fitsinonun ən böyük nailiyyəti Platonun əsərlərinin latın dilinə tərcümə edilməsi idi, bu vaxtdan etibarən ilk dəfə olaraq həmin əsərlərin Qərbi Avropada geniş oxunmasına şərait yarandı. Fitsinonun düşüncəsinə görə "ölməz ruh öz öləri bədənində daim bədbəxt gündədir". Bu mövqeyi Fitsinonun şagirdi Covanni Piko della Mirandola da müdafiə edirdi. Onun ən məşhur əsəri "İnsan ləyaqəti haqqında nitq" idi. O, inanırdı ki, "insandan gözəl heç nə yoxdur" və güman edirdi ki, adam öz iradəsi ilə Allahla birləşməyə çatmaq qabiliyyətinə malikdir.

Lakin Petrarka ilə Piko arasındakı dövrün italyan mütəfəkkirlərinin heç biri öz orijinallığı ilə seçilmirdi, onların böyüklüyü əsasən ifadə tərzində idi. Siyasi filosof Nikkolo Makiavelli (1469-1527-ci illər) heç bir məktəbə daxil deyildi. Makiavelli ilə müqayisədə heç kəs siyasətin etik əsası barəsindəki bütün əvvəlki baxışları belə dəyişdirə bilməmişdi və yəqin ki, heç kəs siyasi həyatı onun kimi belə qərəzsiz şəkildə müşahidə etməmişdi. Makiavellinin yazıları həmin dövrün İtaliyasının xoşbəxt olmayan şəraitini təsvir edirdi. 14-cü əsrin sonunda İtaliya beynəlxalq mübarizələrin səhnəsinə çevrilmişdi. Fransa da, İspaniya da yarımadaya müdaxilə etmişdilər və italyan dövlətlərinin sədaqətini əldə etmək uğrunda bir-birilə rəqabət aparırdılar. Axınıncılar müxtəlif yollarla daxili narazılıqlar hesabına dağılırdı və bu onları xarici qəsbkarlar üçün yüngül qurbana çevirirdi. 1498-ci ildə Makiavelli Florensiyada yenicə əsası qoyulmuş respublikada ikinci kansler və katib kimi xidmətə daxil oldu. Onun vəzifəsi başlıca olaraq xarici dövlətlərlə diplomatik əlaqələr yaratmaqdan ibarət idi. Romada olarkən o, Papa VI Aleksandrın oğlu Çezare Borcianın nailiyyətlərinə məftun olmuşdu. Çezare Borcia parçalanmış, səpələnmiş elementlərdən möhkəm dövlət





yaratmışdı. O, Çezarenin hiyləgərliyi ilə birlikdə rəhmsiz hərəkətlərini və əxlaqı bütünlüklə siyasi nəticələrə tabe etməsini təqdir qaydasında qeyd edir. 1512-ci ildə Mediçilər Florensiyada respublikanı devirmək üçün geri qayıtdılar və Makiavelli öz vəzifələrindən məhrum oldu. Ümidsizliyə qapılmaqla o, ömrünün qalan hissəsini sürgündə keçirdi və öz vaxtını əsasən yazmağa sərf etdi. Onun "Livi haqqında mülahizələr" əsərində o, qədim Roma respublikasını bütün dövrlər üçün model kimi tərifləyir. O, konstitutsionalizmi, bərabərliyi, kənar müdaxilədən asılı olmamaq düşüncəsində azadlığı və dinin dövlətin mənafelərinə tabe edilməsi fikrini dilə gətirir.

Lakin Makiavelli həmçinin "Hökmdar" əsərini yazır və burada siyasəti və idarəetmə praktikasını hamısı bir yüksək ideal kimi deyil, onları əslində mövcud olduğu kimi təsvir edir. O, təlqin edir ki, hökmdarın ali vəzifəsi hakimiyyəti qoruyub saxlamaq və idarə etdiyi ölkənin təhlükəsizliyini təmin etməkdir. Onun qarşısını heç bir hansısa ədalət və ya mərhəmət hissi, yaxud da münasibətlərin müqəddəsliyi kəsə bilməz. İnsan təbiəti barədəki baxışında Makiavelli bu fikri dəstəkləyir ki, bütün adamlar müstəsna olaraq öz şəxsi mənafelərindən çıxış edirlər, xüsusən də onlar daim şəxsi hakimiyyət və maddi rifah nöqteyinəzərindən hərəkət edirlər. Dövlətin başçısı ona görə də öz təbəələrinin sədaqətinə və ya məhəbbətinə bel bağlamamalıdır.

Makiavellinin sonrakı illərdə də qoruyub saxladığı bir ideal İtaliyanın birləşməsi idi. Lakin Makiavelli inanırdı ki, buna da yalnız rəhmsizliklə nail olmaq mümkündür. Bu dövrün zövqlərini daha yaxşı dərk etmək üçün Makiavellinin siyasi nəzəriyyəsindən fərqli olan diplomat və qraf Baldesar Kastiqlionenin kübar davranışı barədə yazdığı "Saray adamının kitabı" (1516-cı il) xüsusi əhəmiyyət kəsb edir. Etiket barədə məharətlə yazılmış bu kitab əvvəlki mülki humanist baxışlara tam zidd idi. Humanist baxışlar şəhər-dövlətin və ailənin naminə xidmət göstərməyi öyrədirdi. Kastiqlione isə İtaliyada görkəmli hökmdar saraylarının ağalıq etdiyi bir vaxtda yazdığı kitabda "həqiqi centlmen" kimi hərəkət etmək qaydalarını öyrədirdi. Ona görə "Renessans insanı" idealı cəsarətli, ağıllı və sivilizasiyalanmış, təhsil görmüş mənasını verən "ədəbli" olmağı nəzərdə tuturdu. Kastiqlione qadının "ocaq və evdəki" rolu barədə susurdu, lakin qeyd edirdi ki, saray xanımı "nəcib davranışı" ilə seçilməlidir. Bununla yanaşı o, ilk Avropa kişi yazıçısı idi ki, evdən kənarda qadına müstəqil rol təklif edirdi. Onun bu əsəri çap olunduqdan sonrakı əsr ərzində bütün Avropada geniş oxunmaqla italyan "sivil" ideallarını Alpdan şimaldakı hökmdar saraylarına yayıldı və bunun nəticəsi isə Avropa kübarları tərəfindən incəsənətə və ədəbiyyata böyük himayəçilik göstərilməsi oldu. Belə bir fikir də meydana gəldi ki, rahiblərdən savayı digər bütün qadınlar heç də nəsil artırmaq və övladları böyütmə kimi passiv rol qisməti ilə məhdudlaşdırılmamalıdırlar.

Bunlardan əlavə, 16-cı əsrdə italyanlar yaxşı nəsr və poeziya əsərləri də yaratmışdılar. Belə güclü təsir göstərən əsərlərdən biri Makiavellinin "Mandraqo-

la" pyesi idi. Böyük rəssam və heykəltəraş Mikelancelo çox sayda sonetlər yazmışdı. 16-cı əsrin ən görkəmli italyan epik şairi Lyudoviko Ariosto (1474-1533-cü illər) idi. Onun uzun nağıl kitabı "Orlando Furiozo" ("Rolandın dəliliyi") adlanırdı. Əsər mövzusunun orta əsr Karolinq sülaləsi siklindən götürülməsinə baxmayaraq, kitab orta əsr eposlarından tam fərqli idi. Kitabda fantaziya elementləri tətbiq olunmuşdu, bütövlükdə isə qəhrəmanlıq idealizmindən məhrum idi. Ariosto yazdığı əsərlə oxucularını güldürməyə və təbiətin böyüklüyünə və məhəbbətin ehtirasına onların rəğbət göstərməsinə çalışırdı. Onun kitabı sonrakı Renessansın illyuziyalarının yoxa çıxmasını, ümid və inamın itirilməsini, həzzə və estetik sevincə qatılmaq lüzumunu ifadə edirdi.

Bir sıra intellektual və ədəbi irəliləyişlərə baxmayaraq, italyan Renessansının ən uzun ömürlü nailiyyəti rəngkarlıq səltənətində qazanılmışdı. Bütün incəsənət növlərindən heç şübhəsiz ən yüksəyi rəssamlıq idi. Hələ 1300-cü il ətrafında italyan rəssamlığı Cottonun rəssamlıq dühası ilə öz başlanğıcını götürmüşdü, lakin 15-ci əsrdə italyan rəssamlığı daha çox sayda adamları özünə cəlb etməyə başladı. Bir vacib səbəb bundan ibarət idi ki, 15-ci əsrin əvvəllərində xətt perspektivi qanunları kəşf edilmişdi və ilk dəfə olaraq üç ölçü barədəki tam düşüncə istifadə edilməyə başlanmışdı. 15-ci əsrin rəssamları həmçinin işıq və kölgə effektini sınaqdan keçirdilər və ilk dəfə olaraq insan bədəninin anatomiyasını və proporsiyalarını diqqətlə öyrəndilər. Bu vaxt təkcə kilsə rəssamların himayəçisi olaraq qalmırdı, Bibliya tarixindən olan hadisələr ümumi şəkildə istifadə edildikdən sonra dinə aid olmayan mövzulara da keçildi. Ruhun gizlənilən sirrlərini açmaq niyyəti ilə portretlərin təsviri bu vaxt populyar olmağa başladı. Rəsmlər başlıca olaraq intellektə müraciət etmək məqsədini güdürdü. 15-ci əsrdə yağlı boyalarla rəsm çəkilməsi tətbiq olundu, bu yəqin ki, Flandriyadan əxz olunmuşdu. Yeni texnikadan istifadə olunması, heç şübhəsiz rəssamlığı həmin dövrdə inkişaf etdirirdi.

Dövrün rəssamlarının əksəriyyəti florensiyalılar idi. Onların içərisində ilk seçilən gənc Masaçuo (1401-1428-ci illər) idi. 27 yaşında ölməsinə baxmayaraq, Masaçuonu italyan rəssamlarının yüz illik əsərləri ilhama gətirmişdi. Onun rəssam kimi böyüklüyü "təqlid edilən təbiət"dəki uğurlarına əsaslanırdı, bu Renessans rəngkarlığında başlıca dəyərə çevrildi. Bu effekti əldə etmək üçün o, perspektivdən istifadə edirdi və bu üslub daha çox onun "Üçlük" freskasında nəzərə çarpır. O, həmçinin kölgədən orijinal qaydada istifadə edirdi, bu isə öz növbəsində dramatik və hərəkət xarakterli nəticəyə gətirib çıxarırdı. "Adəm və Həvvanın bağdan qovulması" əsərində o, Bibliya əhvalatındakı fərdlərin hiss etdikləri biabırçılığı və təqsiri təsvir edir.

Onun ənənəsini davam etdirən rəssamlardan daha yaxşı tanınanı florensiyalı Sandro Bottiçelli idi, o, bir qayda olaraq dini və klassik mövzularda tablolar yaradırdı. Bottiçellinin əsərləri təbii detalların gözəl və diqqətli təsviri ilə seçilir. Misal üçün, o, çılpaq qadın rəsmlərinin ustası idi. Lakin rəssamın Renessans





rəngkarlığına göstərdiyi kömək onun əsərlərinin çoxunun fəlsəfi əsaslarından irəli gəlirdi, bu əsərlərinə görə o, florensiyalı neoplatonistlərə yaxın idi. Onun ən məşhur əsərlərindən ikisi - "Bahar alleqoriyası" və "Veneranın doğulması" klassik məhəbbət ilahəsi Venera və ya Afroditanı şərəfləndirən neoplatonik konsepsiyanı nümayiş etdirirdi. Bottiçelli ömrünün sonrakı illərində yevangelist keşişi Savonarolanın tərəfdarına çevrildi. Savonarola Florensiyaya Ferraradan gəlmişdi ki, od və kükürd moizələri ilə dünyəviliyə qarşı dualar oxusun. Bottiçelli özünün "Mistik doğulma" əsərini Savonarolanın təsiri altında yaratmışdı. Bottiçellinin həyatının son illəri qaranlıqdır, onun populyarlığı da süqut etdi və o, kasıblıqda öldü.

Çox güman ki, ən böyük Florensiya rəssamı Leonardo da Vinçi (1452-1519-cu illər) idi. Leonardo praktiki olaraq "Renessans insanı" kimi tanınırdı. O, rəssam, arxitektor, musiqiçi, riyaziyyatçı, mühəndis və ixtiraçı idi. Vəkilin və kəndli qadının qanunsuz nikahdan doğulmuş oğlu olan Leonardo 25 yaşında Florensiyada rəssamlıq emalatxanası açmışdı və şəhərin hökmdarı, Mediçilərdən olan Füsunkar Lorentsonun himayəsini qazanmışdı. Leonardonun bir zəifliyi vardısa, bu da onun əsəri üzərində ləng işləməsi və hansısa bir əsərini başa çatdırmaqda çətinlik çəkməsi idi. Bu təbii olaraq Lorentsonun və digər florensiyalı hamilərin xoşuna gəlmirdi, axı onlar rəssamın adi sənətkardan bir az yuxarı olduğunu düşünürdülər, müəyyən qiymətə olan əsərin müəyyən vaxtda yaradılmasını tələb edirdilər. Leonardo isə özünü pula işləyən sənətkar deyil, ilhamlanan yaradıcı hesab edirdi. Buna görə də o, 1482-ci ildə Milandakı Sfortsa sarayına getmək üçün Florensiyanı tərk etdi, orada ona sərbəst işləmək şəraiti yaradıldı. O, burada 1499-cu ildə fransızlar Milana müdaxilə edənə qədər qaldı. Sonra o, İtaliyanı dolaşdı, nəhayət bir il əvvəl taxt-taca çıxmış fransız kralı I Frantsiskin himayəsini qəbul etdi və onun xoş münasibəti şəraitində Fransada öz ölümünə qədər olan müddətdə üç il qaldı və işlədi.

İtaliyada yüksək Renessans kimi tanınan dövr başlananda Leonardo da Vinçinin rəssamlığı başlandı. O, təbiəti ustalıqla təqlid edirdi, naturalistə bənzəyirdi, öz əsərlərində kiçik otu, quşun qanadını, şəlaləni elə seyr etdiyi kimi də xırda detallarla təsvir edirdi. O, insan bədənini parçalanmış, anatomiya olunmuş qaydada düşünərək məhz anatomik xüsusiyyətlərlə öz kətanına köçürürdü. Leonardo təbiətə sitayiş edirdi, bütün yaşayan məxluqların mahiyyətcə ilahiliyinə inanırdı. Lakin bu da təəccüblü deyildi ki, o, vegetarian idi və bazar meydanına gedib qəfəsdə olan quşları satın alıb onları təbii məskənlərində yaşamaq üçün azad edirdi. Leonardonun inciləri sırasına "Qayalar bakirəsi", "Sonuncu şam yeməyi" və "Mona Liza" əsərləri daxildir. Birinci əsər təkcə onun qəribə texniki bacarığına deyil, həm də elmə olan ehtirasını nümayiş etdirir. Burada insani obrazları, hər bir qaya və bitkinin diqqətlə çəkilmiş detalları ilə həndəsi qaydada birləşdirilərək təsvir edilmişdir. "Axırıncı şam yeməyi" Milandakı Santa Mariya kilsəsinin divarında çəkilməklə, psixoloji reaksiyaların öyrənil-



**Hörmətli oxucu,**

**“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.**